Post-şou
20.05.2017

17-19 may ayının tarixlərində Bakıda 23-cü Azərbaycan Beynəlxalq Qida Sənayesi WorldFood Azerbaijan 2017 sərgisi keçirildi. Keçirildiyi illər ərzində sərgi özünü mütəxəssislər arasında ənənəvi görüş yeri, habelə qida sənayesi üzrə avadanlıq, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olmuşdur. Uzun illərdir ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi "WorldFood Azerbaijan" sərgisinə yaxından dəstək göstərir. Sərgi həmçinin Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənir.

Sərgilərin birinci günü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "WorldFood Azerbaijan" və "Ipack Caspian" sərgiləri ilə tanış olublar.

"WorldFood Azerbaijan 2017" sərgisi dünyanın 21 ölkəsini, o cümlədən Azərbaycan, Belarus, Belçika, Yunanıstan, İspaniya, İtaliya, Latviya, Qazaxıstan, Rusiya və digər ölkələri təmsil edən 164 şirkəti qəbul edib. Bu il ilk dəfə olaraq iştirakçı ölkələrin siyahısına Meksika da daxil olub. Macarıstan, Şri-Lanka və Belarus Respublikası sərgidə milli stendlərlə çıxış ediblər. Stavropol diyarı (Rusiya) tədbirdə regional stendlə iştirak edib. Polşanın Azərbaycandakı səfirliyi isə sərgidə Polşa Respublikasının ixrac potensialını təqdim edib. Sərgidə Şri-Lankanı təmsil edən seylon çayı istehsalçılarının qrupuna rəhbərlik edən "Şri-Lanka Ti Bord" Dövlət Çay Komitəsi ardıcıl olaraq ikinci ildir ki, tədbirdə iştirak edib. Bu il Bakıdakı "Belarus" mağazalar şəbəkəsi sərgidə debüt ediblər.

Sevindirici haldır ki, "Made in Azerbaijan" brendi ilə çıxış edən yerli şirkətlər sərgidə fəal təmsil olunub. Belə ki, yerli eksponentlər qrupuna sərginin daimi iştirakçıları – "Azersun Holding", "Gilan Holding", "Metak" şirkətləri rəhbərlik edir, yerli meyvə və tərəvəz ixracatçıları isə "Amoris" və "Buta Group" şirkətlərinin timsalında təmsil olunublar. Builki debütantlar arasında bazarda yeni məhsulu – xüsusi emal üsulu ilə qurudulmuş xurmanı təklif edən "Bal Xurma" şirkəti, "Sem-Az" (laboratoriya avadanlıqları) və "Enes" (pablaşdırmma) şirkətləri yer alıblar.

Beləliklə, "WorldFood Azerbaijan 2017" sərgisinin iştirakçıları aşağıdakı sektorlar üzrə öz məhsullarını təklif ediblər: qida sənayesi üçün avadanlıqlar, qida məhsulları, meyvə-tərəvəz, mal və quş əti, qəhvə və çay, konservləşdirilmiş məhsullar, süd məmulatları, baqqaliyyə məmulatları, inqrediyentlər, qənnadı və un məmulatları, içkilər, soyutma sistemləri, laboratoriya avadanlıqları və s.

Bu il ilk dəfə olaraq "WorldFood Azerbaijan" sərgisi çərçivəsində təşkilatçılar eksponentlər və ziyarətçilər üçün daha bir işgüzar platforma – vorkşop təşkil ediblər. Vorkşop iştirakçıları bir tərəfdən qida məhsullarının xarici istehsalçı və tədarükçüləri, digər tərəfdən isə yerli distribyutorlardır. Bazarın hər iki

iştirakçısı öz həmkarları ilə bir masa ətrafında görüşlər keçirmək və bir gün ərzində bir neçə əsas müştəri ilə danışıqlar aparmaq üçün unikal imkan əldə ediblər.

"WorldFood Azerbaijan" sərgisi ilə eyni platformada Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya "Ipack Caspian 2017" sərgisi keçirilib. Ötən il keçirilmiş eyniadlı tədbir ilə müqayisədə, bu il "Ipack Caspian 2017" iştirakçılarının tərkibi və təklif olunan məhsul çeşidi əhəmiyyətli dərəcə genişlənmişdir. Sərgi çərçivəsində Azərbaycan, BƏƏ, İtaliya, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən eksponentlər ziyarətçilərə tara və qablaşdırma ilə yanaşı, bu məhsulların istehsalı üzrə müxtəlif həll variantlarını da təklif ediblər.

Bu il təşkilatçılar tərəfindən həyata keçirilən yenilik sərginin açılışından xeyli əvvəl keçirilmiş işgüzar qəlyanaltı olub. İşgüzar qəlyanaltının keçirilməsində məqsəd iştirakçılara sərginin imkanlarından səmərəli şəkildə istifadə baxımından kömək etməkdir. Tədbirdə "WorldFood Azerbaijan" sərgisinin eksponentləri və təşkilatçılar komandası iştirak edib. İşgüzar qəlyanaltı təşkilatçılar tərəfindən xüsusi olaraq dəvət edilmiş "Big City Coaching " şirkətinin bələdçisi Ksenika Borisova tərəfindən aparılıb. Qəlyanaltı zamanı stendlərin təşkil olunmasının başlıca məsələləri müzakirə edilib, sərgilərdə uğurlu inkişaf formullarının təqdimatı keçirilib. Bələdçi sərgidə əlaqələr qurmaq üçün bütün resurslardan maksimum istifadə etməyin vacibliyini qeyd edib və təşkilatçıların sərgiyə qədər, sərgi zamanı və sərgidən sonra təklif etdikləri pulsuz resursları xatırladıb. Bundan başqa, təşkilatçılar işgüzar qəlyanaltı keçirməklə iştirakçılara bir-biriləri ilə tanış olmaq imkanı yaradıb, çünki onların əksəriyyəti bir-birilərinin potensial müştəriləri olsalar da, sərgi zamanı stendlərdə aparılan gərgin işə görə belə imkana malik olmurlar.

Beləliklə, qida sənayesinin sərgisi mütəxəssislər arasında ənənəvi görüş yeri, habelə qida sənayesi üzrə avadanlıq, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olub. "WorldFood Azerbaijan" və "Ipack Caspian" sərgilərinin təşkilatçıları qismində "Iteca Caspian" və onun Böyük Britaniyalı tərəfdaşı "ITE Group" şirkətləri çıxış edirlər. Layihə üzərində iş üçün beynəlxalq şirkətləri Azərbaycandakı sərgilərə fəal şəkildə dəvət edən "ITE Group" şirkətinin tərəfdaşlar şəbəkəsi – "ITE London", "EUF" (Türkiyə), Caspian Event Management (BƏƏ), ITE China (Çin), ITE Poland (Polşa) şirkətləri cəlb olunub.

Audit şirkəti UFI – Beynəlxalq Sərgilər İndustriyası Assosiyasiyasının qeydlərinə əsasən bu ilki sərginin ziyarətçilərinin sayı 6693 nəfər təşkil edib. "UFI tərəfindən təsdiqlənmiş" nişanı sərgilərin bütün beynəlxalq standartlara uyğunluğunu təsdiqləyir.

2018-ci ildə sərgi 23-25 may ayının tarixlərində keçiriləcək.

**#WorldFoodAzerbaijan**

***Rəylər***

**Nərgiz İsgəndərzadə, "Aznur" şirkətinin direktoru**

""Aznur" şirkətinin daxil olduğu "Belarusskiy" ticarət şəbəkəsi "WorldFood Azerbaijan 2017" sərgisində debüt edir. "Qida məhsulları" sərgisi iştirakçı şirkətlər üçün yeni müştərilərin, satış bazarlarının axtarışı və satış coğrafiyasının genişləndirilməsi baxımından səmərəli vasitə olub, tərəfdaş axtarmağa şərait yaratmaqla yanaşı, bazara daxil olmağa da kömək edir".

**M.N.Nazlin, "Sri Lanka Tea Board" şirkətinin meneceri və Rusiya və MDB ölkələrindəki təmsilçisi**

"Sərginin gedişatı məni çox razı salıb. Şirkət bu tədbir sayəsində yeni əlaqələr qazanıb. Əlbəttə, gələcək illərdə də Bakıda keçiriləcək sərgilərdə iştirak etmək istəyirik və ümidvarıq ki, daim müsbət nəticələr əldə edəcəyik".

**Tural Həsənov, "Mirlex Trading" distribusiya şirkətində satış departamentinin rəhbəri, "Pieno Zvaigzdes"**

"Biz sərgidə hər il iştirak edirik və tərəfdaşlarımızın və "Pieno Zvaigzdes" şirkətinin rəhbərliyinin adından qeyd etmək istəyirəm ki, biz yüksək təşkilatçılıq səviyyəsindən, öz tərəfdaşlarımızla gələcək əməkdaşlıq perspektivlərindən razıyıq".